

*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı tarixi Azərbaycan torpağıdır.*

Heydər ƏLİYEV

*Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacağıq.*

İlham ƏLİYEV

Bir parça daş vətəndir!
*Mahirə NAĞIQIZI*

# YURDUN SƏSİ

№ 06 (21) İyun 2026-cı il



**Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq sivilizasiyalı cəmiyyət uğrunda mübarizə aparıb, ümumdünyəvi bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin.**

**HEYDƏR ƏLİYEV,**

**1993-cü il 15 iyun**

# "Heydər Əliyevin Qərbi Azərbaycan siyasəti: Tarixi və siyasi varislik" kitabının müzakirəsi olub






**Prezident Kitabxanasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru Leyla Cəlalovanın "Heydər Əliyevin Qərbi Azərbaycan siyasəti: Tarixi və siyasi varislik" adlı kitabının müzakirəsinə həsr olunmuş dəyirmi masa keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra tədbiri giriş sözü ilə açan Prezident Kitabxanasının direktoru, professor Afət Abbasova Qərbi Azərbaycan mövzusunun dövlət siyasətinin ən mühüm prioritetlərindən biri olduğunu vurğulayıb. O, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilən bu strateji xəttin elmi əsaslarla təhlili baxımından təqdim olunan monoqrafiyanın mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Xüsusilə qeyd edib ki, soydaşlarımızın məruz qaldığı soyqırımı, deportasiya və repressiyaların Ümummilli Lider Heydər Əliyevin öz ailəsinin timsalında, onların yaşadıqları acılar fonunda işıqlandırılması əsərin ən təsirli məqamlarındandır.

Daha sonra kitabın mövzusunu, elmi-tarixi əhəmiyyətini əks etdirən videoçarx nümayiş olunub.

Dəyirmi masada çıxış edən kitabın ideya müəllifi, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova, professor, ADPU-nun rektoru Cəfər Cəfərov, deputatlar - Sadiq Qurbanov, Rizvan Nəbiyev, Pərvin Kərimzadə, Məlahət İbrahimqızı, Azər Allahverənov mövzunun aktuallığından bəhs ediblər. Natiqlər kitabın soydaşlarımızın tarixi torpaqlarına qayıdış hüququnun beynəlxalq müstəvidə müdafiəsi və gənc nəslin milli yaddaşının qorunması baxımından dəyərli bir mənbə olduğunu qeyd ediblər.

İqtisad üzrə fəlsəfə doktoru, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının kafedra rəisi Müşfiq Ramazanov, tarix üzrə fəlsəfə doktoru, professor Cəbi Bəhramov və Prezident Kitabxanasının direktorunun müşaviri, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa çıxışlarında əsərin elmi-tarixi əhəmiyyətinə toxunublar. Bildirilib ki, kitabda arxiv sənədləri əsasında Qərbi Azərbaycana dair reallıqlar, deportasiya proseslərinin siyasi-hüquqi aspektləri və Ulu Öndərin bu istiqamətdəki uzaqgörən fəaliyyəti sistemli şəkildə araşdırılıb.



Tədqiqatçı, hüquqşünas Səməd Vəkilov və professor İbrahim Bayramov isə məsələnin hüquqi və ictimai tərəflərini vurğulayaraq, icmanın qarşıya qoyduğu hədəflərlə bu cür elmi araşdırmaların paralellik təşkil etdiyini diqqətə çatdırıblar.

Kitabın müəllifi, tarix üzrə fəlsəfə doktoru Leyla Calalova tədqiqat prosesi barədə məlumat verərək, tədbirin təşkilinə görə Prezident Kitabxanasının rəhbərliyinə və iştirakçılara minnətdarlığını bildirib.

Tədbirin sonunda çıxış edən professor Afət Abbasova elmi ictimaiyyətə təqdim olunan bu monoqrafiyanın gələcək araşdırmalar üçün mükəmməl baza rolunu oynayacağını qeyd edib və müəllifə yaradıcılıq uğurları arzulayıb.

# "Yaddaşlarda yaşayan vətən" sənədli filminin təqdimat mərasimi keçirilib






**ADPU-nun Beynəlxalq əlaqələr üzrə Prorektorluğunun nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırma Mərkəzinin təşkilatçılığı ilə "Yaddaşlarda yaşayan vətən" sənədli filminin təqdimat mərasimi keçirilib.**

Tədbirdə universitet rəhbərliyi, Qərbi Azərbaycan İcmasının nümayəndələri, millət vəkilləri, professor-müəllim heyəti, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Çıxış edənlər filmin Qərbi Azərbaycanın zəngin mədəni irsinin, adət-ənənələrinin, ədəbiyyatının, incəsənətinin, milli geyim və mətbəx nümunələrinin tanıdılması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıblar.

İsveçli rejissor Mikael Silkebergin ərsəyə gətirdiyi filmdə Qərbi Azərbaycan yaddaşlarda yaşayan və mədəni dəyərləri ilə qorunub saxlanılan məkan kimi təqdim olunur. Arxiv materialları, tarixi xəritələr və müxtəlif şahid ifadələri vasitəsilə göstərilir ki, bəzi coğrafiyalar yalnız fiziki sərhədlərlə deyil, insanların mədəni şüurunda və kollektiv yaddaşında yaşayır.

Filmdə Qərbi Azərbaycanın mədəni irsinin mühüm tərkib hissəsi olan aşıq sənətinə xüsusi yer ayrılıb. Göyçə mahalının yetirdiyi böyük söz ustadı Aşıq Ələsgərin yaradıcılığı vasitəsilə bölgənin mənəvi dəyərləri, təbiəti və insanlarının həyat tərzi tamaşaçılara təqdim olunur.

Sənədli filmdə həmçinin ədəbi və bədii irsin qorunması məsələlərinə toxunulur, klassik ədəbiyyat nümunələri, təsviri sənət əsərləri və tarixi əlyazmalar milli kimliyin yaşadılmasının vacib vasitələri kimi təqdim edilir. Bununla yanaşı, İrəvan xalçaçılıq məktəbinin nümunələri, milli geyimlər və kulinariya irsi Qərbi Azərbaycanın zəngin maddi-mədəni irsinin ayrılmaz hissəsi kimi nümayiş olunur.

# Ankarada "Ortaq Türk mirası: Qərbi Azərbaycanın və Qars bölgəsinin milli geyim mədəniyyəti" layihəsi çərçivəsində tədbirlər keçirilib

**4 iyun 2026-cı il tarixində Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının "Ortaq Türk mirası: Qərbi Azərbaycanın və Qars bölgəsinin milli geyim mədəniyyəti" layihəsi çərçivəsində Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində bir sıra tədbirlər təşkil olunub.**

Tədbirlərdə Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, millət vəkili, layihənin və nümayəndə heyətinin rəhbəri Məlahət İbrahimqızı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova, Qadınlar Şurasının üzvü, beynəlxalq əlaqələr üzrə koordinator, millət vəkili Tənzilə Rüstəmxanlı, Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun üzvü, millət vəkili Səbinə Salmanova, Qadınlar Şurasının sədr müavini, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dekanı, dosent Könül Həsənova, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü, Azərbaycan Dillər Universitetinin kafedra müdiri və Qərbi Azərbaycan Araşdırmaları Mərkəzinin rəhbəri, dosent Həqiqət Hacıyeva, Bakı Dövlət Universitetinin dosenti, Qadınlar Şurasının üzvü Xatirə Mehdiyeva, Azərbaycan Milli Tarix Muzeyinin departament rəhbəri, milli geyim üzrə etnoqraf alim, dosent Gülzadə Abdulova və Qadınlar Şurasının üzvü Ülviyyə Allahverdiyeva iştirak ediblər.

Layihə çərçivəsində Ankara Universitetinin ev sahibliyi ilə Qərbi Azərbaycan İcmasının Qadınlar Şurası və universitetin Gözəl



Sənətlər Fakültəsinin birgə təşkilatçılığı ilə "Ortaq Türk mirası: Qərbi Azərbaycanın və Qars bölgəsinin milli geyim mədəniyyəti" mövzusunda elmi konfrans keçirilib. Eyni zamanda Qərbi azərbaycanlıların, xüsusilə İrəvan Xan Sarayının milli geyim mədəniyyətinə aid nümunələrdən ibarət sərgi təşkil olunub. Tədbir iştirakçılarına Qərbi Azərbaycan mətbəxinin zəngin nümunələrindən ibarət furşet də təqdim edilib.

Qeyd olunub ki, Qərbi Azərbaycanın milli geyim və qeyri-maddi mədəni irsinə həsr edilmiş belə bir tədbir ilk dəfə olaraq Azərbaycan hüdudlarından kənarda təşkil edilir. Layihənin əsas məqsədi əsrlər boyu Qərbi Azərbaycanda yaşamış Azərbaycan türklərinin yaratdıqları zəngin mədəni irsin təbliği, qorunması və beynəlxalq ictimaiyyətə çatdırılmasıdır. Bununla yanaşı, tədbir vasitəsilə ümumtürk mədəni irsinin ayrılmaz hissəsi olan Qərbi Azərbaycan mədəniyyətinin Türkiyə ictimaiyyətinə və beynəlxalq auditoriyaya təqdim edilməsi hədəflənib.

Konfrans zamanı Qərbi Azərbaycan həqiqətləri, azərbaycanlıların tarixi torpaqlarından deportasiyalara məruz qalması və bölgədə Azərbaycan xalqına məxsus tarixi-mədəni irsin məhv edilməsi faktlarına da diqqət çəkilib. Bildirilib ki, XX əsrdə Qərbi Azərbaycanda yaşayan Azərbaycan türkləri müxtəlif mərhələlərdə deportasiya və etnik təmizləmə siyasətinə məruz qalıb, nəticədə yüz minlərlə insan doğma yurdlarından didərgin salınıb. Xüsusilə 1987–1991-ci illərdə baş vermiş son deportasiya zamanı 22 rayon və 300-ə yaxın kənddə yaşayan təxminən 300 min azərbaycanlı öz tarixi torpaqlarından qovulub.

Tədbirdə vurğulanıb ki, Qərbi Azərbaycanda Azərbaycan xalqına məxsus maddi və qeyri-maddi mədəni irsin qorunması məsələsi beynəlxalq təşkilatların, o cümlədən UNESCO-nun diqqət mərkəzində olmalıdır.

Çıxışlarda qeyd olunub ki, 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qərbi Azərbaycan İcması Qayıdış Konsepsiyasında müəyyən edilmiş prinsiplərə uyğun olaraq, Qərbi azərbaycanlıların öz doğma yurdlarına sülh yolu ilə, ləyaqətli şəkildə və beynəlxalq hüquq çərçivəsində qayıdış hüququnun təmin olunması istiqamətində fəaliyyət göstərir. Bu məqsədlə son illər ərzində beynəlxalq müstəvidə mühüm təşəbbüslər həyata keçirilib.

Bildirilib ki, Ankarada keçirilən tədbirlər də mədəniyyət diplomatiyasının mühüm nümunəsi olmaqla Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasına xidmət edir. Eyni zamanda vurğulanıb ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mədəniyyət diplomatiyası sahəsində fəaliyyəti Qarabağ həqiqətlərinin və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılmasında mühüm rol oynayıb. Bu istiqamətdə formalaşmış təcrübənin Qərbi Azərbaycana qayıdış ideyasının beynəlxalq səviyyədə təşviqinə də mühüm töhfələr verəcəyi qeyd edilib.

# Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” III Konqres-Festivalı

**Naxçıvan Muxtar Respublikasında keçirilən “Qərbi Azərbaycana qayıdış” III Konqres-Festivalı çərçivəsində tədbirin bədii və sərgi hissəsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.**

Festivalın bədii proqramında Qərbi Azərbaycanın zəngin folklorunu, musiqi ənənələrini və milli-mənəvi dəyərlərini özündə əks etdirən konsert proqramı təqdim olunub. Tədbir iştirakçılarına Qərbi Azərbaycan mədəniyyətinin müxtəlif istiqamətlərini əks etdirən musiqi və incəsənət nümunələri nümayiş etdirilib.





Daha sonra konqres-festival iştirakçıları, o cümlədən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova, Türkiyənin İğdır Universitetinin rektoru Ekrem Gürel və digər qonaqlar Qərbi Azərbaycana həsr olunmuş sərgilərlə tanış olublar.

Ordubadın qədim məhəllələri boyunca qurulmuş pavilyon və stendlərdə əslən Qərbi Azərbaycandan olan soydaşlarımız tərəfindən doğma yurd yerlərinin adət-ənənələri, mədəniyyəti, folklor nümunələri, kulinariya irsi və milli-mənəvi dəyərləri təqdim edilib. Sərgi iştirakçıları Qərbi Azərbaycanın tarixi keçmişini, mədəni müxtəlifliyini və həyat tərzini əks etdirən ekspozisiyalarla yaxından tanış olmaq imkanı əldə ediblər.

Bununla yanaşı, tədbir çərçivəsində Qərbi Azərbaycanın tarixi, təbiəti, maddi-mədəni irsi və sənət ənənələrini əks etdirən rəsm, xalça və digər sənət nümunələri, həmçinin kitab, jurnal və qəzet sərgiləri nümayiş olunub.

Qeyd edək ki, “Qərbi Azərbaycana qayıdış” III Konqres-Festivalı Qərbi Azərbaycanın tarixi, mədəni irsi və milli-mənəvi dəyərlərinə həsr olunmuş müxtəlif istiqamətlər üzrə plenar iclaslar və panel müzakirələrlə öz işini davam etdirib.

# Dərələyəz mahalı Oğbin kəndi

**Oğbin - tarixi Azərbaycan kəndlərindən biri olub, İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində, Almalı (Xndzorud) kəndinin yaxınlığında yerləşirdi. Kənd rayon mərkəzindən təxminən 30 km məsafədə idi.**



Oğbin etnik tərkibinə görə qarışıq yaşayış məntəqəsi olmuşdur. XIX əsrin ikinci yarısından etibarən Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində kəndə ermənilər yerləşdirilmiş və onların sayı tədricən artmışdır. Tarixi-statistik mənbələrə görə, kənddə 1831-ci ildə 37 nəfər azərbaycanlı yaşayırdı. 1873-cü ildə əhali 104 azərbaycanlı və 57 ermənidən, 1886-cı ildə 169 azərbaycanlı və 62 ermənidən, 1897-ci ildə 245 azərbaycanlı və 104 ermənidən ibarət olmuşdur. 1914-cü ildə kənddə ümumilikdə 531 nəfər azərbaycanlı və erməni yaşayırdı.

1918-ci ildə erməni silahlı dəstələrinin hücumları nəticəsində kənd dağıdılmış, azərbaycanlı əhalinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar isə doğma yurdlarından deportasiya olunmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlıların bir hissəsi 1924–1925-ci illərdə Oğbinə qayıda bilmişdir. Lakin onların burada uzunmüddətli və təhlükəsiz yaşaması mümkün olmamışdır. 1926-cı ildə kənddə cəmi 37, 1931-ci ildə isə 53 nəfər azərbaycanlı qeydə alınmışdır. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı əsasında 1948-ci ildə kənddə qalan azərbaycanlılar da zorla Azərbaycana köçürülmüşdür.

Toponim qədim türk dillərində “tayfa ittifaqı”, “boy birliyi” mənasını bildirən oğ (ok) sözü ilə qıpçaq tayfalarından biri olan min (minq) etnoniminin birləşməsindən yaranmışdır. Azərbaycan dilində m>b və ya bm səs əvəzlənməsi qanunauyğun olduğundan, Oğbin adındakı bin komponenti min etnoniminin fonetik dəyişmiş forması hesab edilir. Buna görə də Oğbin etnotoponimdir və quruluşca mürəkkəb toponimlər sırasına daxildir.

Haqqında danışdığımız bu kəndin adını İ.Şopen Oqbun, Korkodyan Ozbin, Sabir Əsədov Voğbin, H.Rəhimoğlu Özbin formasında qeyd etmişlər. Fikrimizcə, Oxbin kənd adının ilkin forması Ox binəsi, daha sonra Ox binə, nəhayət Oxbin//Oğbin olmuşdur ki, bu toponim də Azərbaycan xalqına məxsusdur. Dərələyəzlə maraqlanan tədqiqatçılar bu toponimi daha ətraflı şəkildə araşdırmalıdırlar.

1905–1907, 1918–1920-ci illərdə və 1948–1951-ci illər deportasiyasından əvvəl Oğbin kəndində ermənilər azərbaycanlılara qarşı etnik təmizləmə və qırğınlar həyata keçirmişdilər. Təxribatlar törədərək kənd sakinlərini şərləyir, onların həbs olunmasına səbəb olur, tez-tez münaqişələr yaradırdılar. Bu qarşıdurmaların nəticəsində çoxlu sayda azərbaycanlı qətlə yetirilirdi. Nəticədə erməni daşnakları öz havadarlarının dəstəyi ilə məqsədlərinə nail olur, azərbaycanlılar isə həbs və



ölüm təhlükəsi qarşısında doğma kəndlərini tərk etməyə məcbur qalırdılar.

Oğbin kəndini məcburi şəkildə tərk edən ailələrdən biri də Hüseyn Vəliyevin ailəsi olmuşdur. Atası Bayram kişi 1905-ci ildə Oğbin kəndində anadan olmuşdur. 1918-1920-ci illərdə kəndə hücum edən erməni daşnak silahlı dəstələri azərbaycanlıları amansızlıqla qətlə yetirir, Bayram kişinin qohumlarından bir neçəsinin başını kəsir. Bu vəhşiliyə dözməyən kənd camaatı Arazın o tayına qaçmağa məcbur olur.

Hüseyn Bayram oğlu Vəliyev 1938-ci ildə Dərələyəz mahalı Oğbin kəndində anadan olmuşdur.

Hüseynin hələ üç yaşı tamam olmamış ailəsi ağır həyat sınaqları ilə üzləşir. Həmin illərdə ermənilərlə baş verən qarşıdurmalar nəticəsində ailə böyük faciə yaşayır. Dəyirmana gedən 17 yaşlı əmisi İsmayıl Vəliyev ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir. Əmisi İsmayılın ardınca dəyirmana gedən atası Bayram kişini də ermənilər cinayətin izini itirmək məqsədilə öldürmək istəyirlər. Lakin sayca üstün olmalarına baxmayaraq, Bayram kişini öldürə bilmirlər. Silahlı qarşıdurmadan sağ çıxan Bayram kişi ermənilərdən bir neçəsini yaralayaraq qaçaq düşür.

Ermənilər törətdikləri cinayəti ört-basdır etmək məqsədilə Bayram kişi barəsində dövlət orqanlarına əsassız şikayətlər edirlər. Onu geri qaytarmaq üçün dövlət orqanları həyat yoldaşı Qızxanım ananı və övladları Həsənlə Hüseyni girov götürürlər. Ailəsini xilas etmək məqsədilə Bayram kişi könüllü şəkildə gəlib təslim olur. Bundan sonra ailə üzvləri azadlığa buraxılır, Bayram kişi isə İrəvan həbsxanasına aparılır.

1941-ci ildən sonra Bayram kişinin taleyi barədə heç bir məlumat əldə etmək mümkün olmur. Onun sağ qalıb-qalmadığı, yaxud harada və hansı şəraitdə həyatını itirdiyi naməlum qalır. Ailə uzun illər bu ağrılı naməlumluqla yaşamağa məcbur olur.

Bayram kişinin yoxluğundan istifadə edən ermənilər ailənin digər üzvlərini də məhv etməyə cəhd göstərirlər. Ölüm təhlükəsi ilə üz-üzə qalan ailə doğma yurdunu tərk etməyə məcbur qalır. Onlar 10 yaşlı Həsəni və üç yaşlı Hüseyni qucaqlarına alaraq canlarını qurtarmaq üçün çətin və gizli yollarla piyada Şərur rayonunun Qarxun kəndinə gəlib sığınırlar. Beləliklə, körpə Hüseynin uşaqlıq illəri doğma yurdundan didərgin düşməyin, ailə faciələrinin və ağır həyat sınaqlarının kölgəsində başlayır.

Hüseyn Vəliyev orta təhsilini Şərur rayonunun Qarxun kənd orta məktəbində almışdır. 1972–1977-ci illərdə D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda "Sənayenin planlaşdırılması" ixtisası üzrə ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1978-ci ildə başlamışdır. 1978–1980-ci illərdə Şərur rayonunun Qarxun kəndində aqronom vəzifəsində çalışmışdır. Sonrakı illərdə Naxçıvan şəhərində qastronom müdiri və univermaq direktoru vəzifələrində fəaliyyət göstərmişdir. 1990-cı ildə Şərur Rayon Univermağında əvvəlcə mühasib, daha sonra isə direktor vəzifəsində işləmişdir.

***Möhübbət MƏMMƏDOV,***
***ADPU-nun Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin mütəxəssisi***

**Biri vardı, biri yoxdu... Uca dağları əzəməti ilə könülləri fəth edən, zümzümə ilə axan çayları ruhlara sərinlik bəxş edən, sazın-sözün nəfəsi ilə yaşayan gözəl bir diyar vardı. Bu diyarın gözəlliyi onu görən hər kəsin yaddaşında silinməz iz qoyar, gözlərində əbədi əks olunardı.**

**O diyar bu gün də var, lakin hələki yad əllərdədir. Onun adı Göyçə mahalıdır. Göyçə qədim oğuz ellərinin beşiyi, tariximizin və milli-mənəvi dəyərlərimizin yaşadığı müqəddəs yurd yeridir. Bizim doğulub boya-başa çatdığımız bu torpaqlar təbiətin ən nadir gözəlliklərini öz qoynunda yaşadırdı. Göyçənin saf havası, büllur bulaqları, yaşıl yaylaqları və başı qarlı dağları insanı özünə valeh edir, ona doğmalıq və məhəbbət hissi aşılayırdı.**

# SAMOVARIN HEKAYƏSİ

## (Bu əhvalat şairə Fazilə Yahya qızının həyatında baş vermiş hadisə ilə bağlıdır)

Bu yurdun hər daşı, hər qayası, hər bulağı keçmişimizin xatirələrini yaşadır, insanın qəlbində vətən sevgisini daha da artırır.

Bu yerlərə gələnlər elə ilk baxışdan yurdumuzu görən kimi hüsnünə heyran olur, bir könüldən min könülə vurulur, onun gözəlliyinə, vüqarlı duruşuna heyranlıq duyurdıuar. Səyyah olub diyar-diyar gəzən insanlar bu yerlərin füsunkarlığının fərqinə varmışdı, hətta öz vətəninə dönməyənlər də bu yerlərdə məskunlaşmışdılar. Çünki bu yerlərin sərin dağ havasını ciyərinə çəkən, buz bulaqların diş göynədən suyundan içən doymazdı. Yay fəslində göy yaylaqların qonaq-qarası əskik olmazdı. Hələ büllur kimi bərq vuran Göyçə gölünü demirəm. Üstəlik seyr edəni sehrinə salan, dağların göbəyindən axıb gələn bəstəkarsız zümzüməsi ilə axan suların şirinliyinə bal dadır demişlər. Ağbirçək nənələrimiz bax beləcə yayda yaylaqlarda samovarda, qışda soba üstündə çaydanda bal sudan dəmlənən kəklikotu, yarpız, nanə, dazı otu, quşburnu, çayçiçəyi, çobanyastığı, məxməri mixəkli qara çayladan içirərək nağıl və dastanları, bayatıları ilə bizləri sağlam ruhlu böyütdülər.

Hələ qış gecələrində el aşıqlarının söylədikləri dastanlardan, çaldıqları havalarından, deyişmələrini dinləməkdən doymazdıq. Lakin bu yerlərə ayaq açan xainlər də az deyildi. Onların içində ən nadanı insanlıqdan uzaq gavurlar oldu. Tarix boyu göz dikdilər bu müqəddəs Oğuz yurdunun bərəkətli torpaqlarına.

Hə əzizlərim, bax beləcə ucu-bucağı görünməyən bu gözəl diyarın qoynunda yurd salanlar insan yaranan gündən qaynar qanlı, uca dağları kimi əzəmətli, mərhəmətli ürəklərində Allah sevgisi olan oğuz Türkləri idi.

Beləcə, şad-xürrəm dövran sürür, əl birliyi və el birliyi ilə güzəranlarının xoş keçməsi üçün müqəddəs torpaqlarını əkib-becərir, halal nemətləri ilə dolanırdılar.

Bu mahalda ən böyük hörmət uzaqdan-yaxından gələn hər bir qonağa göstərilirdi. Qonağın yeri də evin xalça ilə döşənmiş, döşəkçələr və mütəkkələrlə bəzədilmiş taxtının üstündə, ən baş tərəfdə olardı. İllər keçdikcə bu diyarın insanlarının qonaqpərvərliyi, ellərin birliyi və yurdların gözəlliyi hər yana səs salmışdı. Hələ Göyçə gölünün gözəlliyini demirəm.

Bir gün erməni adlı yaltaq bir millət də bu yerlərə rusların vasitəsilə ayaq basdı. Beləcə, yaltaq dilləriylə qəlblərə gizlin yol açdı. Zaman keçdikcə müxtəlif yollarla yerli əhali ilə ünsiyyət quraraq burada məskunlaşdılar. Büllur kimi təmiz ürəkli insnlarmızı ovsunladılar və xain əməllərini gizlədərək vaxtın yetişməsini gözlədilər. Qədim türk torpaqlarının ən gözəl guşələrindən birində özlərinə yurd saldılar və bölgənin tarixində yeni bir mərhələ başlandı.

Beləcə, günlər aylara, aylar isə illərə çevrildi. Yağı düşmən içimizdə yurd-yuva saldı, gözəl yurdumuza göz dikdi. Hə, əzizlərim, hələ mətləbə tam gələ bilmirəm, darıxmayın, az qalıb.

Pyotrun siyasəti başımıza böyük bir bəla oldu və bu daşnaqları boynumuza yük etdi. Nə isə, çar Rusiyası dövründə Pyotrun həyata keçirdiyi siyasət nəticəsində onlar bizim torpaqlara köçürüldü və burada məskunlaşdılar.

Sonralar Sovetlər Birliyi adlı bir imperiya yaradıldı. Bu imperiya on beş respublikanı öz hakimiyyəti altına aldı və Oğuz yurdumuz da həmin taleyi yaşayan məkanlardan biri oldu.

O gündən sonra ermənilər bu işğalçıların əli ilə dəfələrlə türklərin bir qismini qətlə yetirdilər. Bir qismini isə dədə-baba yurdlarından didərgin saldılar. Hiylələrini əsasən qış aylarında həyata keçirirdilər. Çünki qışın qar-boranında, zirvəli dağları böyük əzab və məşəqqətlə aşmağa çalışan insanların çoxu yolda donaraq həyatını itirirdi.

Sağ qalanlar da min bir çətinliklə üzləşdilər. Beləliklə, yüz il ərzində dörd dəfə işğalçıların əli ilə Vətəni tərk etməyə məcbur oldular. İnsanlar mal-mülklərinin yalnız çox az bir hissəsini çıxara bildilər, bəziləri isə hətta düşmənin əlindən qaçıb öz canlarını belə xilas edə bilmədilər.

Sonuncu işğal 1988-ci ildə baş verdi. Qədim türk yurdunda bir nəfər də olsun türk qalmadı. Ailələrin çoxu məcburi köçkün kimi Azərbaycana pənah gətirdi. Onlardan biri də şairə Fazilə xanım Yəhya qızının ailəsi idi.

10 nəfərdən ibarət olan bu ailə əvvəlcə qədim Gəncə şəhərində məskunlaşıb. Daha sonra onlar Çəmbərək rayonunun (indiki adı Krasnoselo) Cil kəndinə, oradan da Gəncə şəhərinə köçüblər. Sonradan isə Bakı şəhərinə köçərək burada məskunlaşıblar.

Fazilə xanımın böyük bacısı Kifayət xanım gəncəli bir bəylə ailə quraraq qədim Gəncə şəhərində məskunlaşmışdı. İllər keçdi.



*Fazilə Hüseynova,*
*ADPU-nun baş müəllimi*

Onsuz da doğma el-obasından uzaqda, qəriblikdə yaşayan Kifayət xanım əvvəlcə ömür-gün yoldaşını, sonra isə qayınanasını itirdi. Bu ağır itkilərdən sonra tək qalan qızı ilə birlikdə Bakıya köçmək qərarına gəldi.

Bir az küskün, bir az üzgün, bir az da taleyindən incik idi. Payızda budaqlardan asılı qalan, saralmış və titrəyən yarpaq kimi el həsrəti ilə çırpınan ürəyi artıq ikinci qəribliyə tab gətirə bilmirdi. Doğma elindən ayrı düşməsi bir dərd idisə, indi də ata-anasından, bacı-qardaşından uzaqda qalması onu daha çox incidir, qəlbini göynədirdi. Kifayət xanım anlayırdı ki, insanın ən böyük dayağı yenə də öz doğmaları, öz eli-obasıdır.

Bu fikrini kiçik bacısı, şairə Fazilə xanıma bildirir. Beləliklə, ata-ananın da xeyir-duası ilə Kifayət xanım Gəncədəki evini nəhayət ki, dəyər-dəymazinə satıb Bakı şəhərində bir mənzil alır. İndi isə qalır köçünü yeni mənzilinə gətirmək. Günlərin birində qardaş bacısına zəng vurub onlardan kömək istəyir. Beləliklə, Fazilə xanım yardım etmək üçün Gəncəyə getməli olur.

Beləcə, Kifayət xanım ikinci dəfə eldən-elə köçərkən samovar əhvalatı da yenidən başlayır. Əşyaların yüklənməsi başa çatdıqdan sonra bacılar bir az dincəlmək üçün yerə köhnə palazlardan birini sərdilər. Əvvəlcədən dəmlədikləri çaydan hərəsinə bir fincan süzüb, yorğunluqlarını almaq üçün üz-üzə oturdular.

Bir anlıq sükutdan sonra Göyçəli günlərə səfər etdilər. Evələrinin yanından axan şır-şır bulağın suyunu ovuclayıb içərək istidən yanan ciyərlərini sərinlətmək istədilər. Xəyalən Cil kəndindəki ata ocağına qayıtdılar, atalarının nizamla qurub yaratdığı evlərinə baş çəkdilər.

Xatirələrin qanadında uşaqlarla evcik-evcik, yeddi daş, bənövşə-bəndə düşə, dirədöymə, sovetnemets, əlimdəmirdə, aşıq-aşıq və s. oyunları oynadıqları anlar gözlərinin önündən gəlib keçdi. Elin xarrat ustası ataları Yəhya kişinin düzəltdiyi pəncərələrdən boylanaraq uşaqlıqlarına qayıtdılar.

Gecənin bir aləmində ata Göyçə gölündən tutub gətirdiyi balıqları öz əlləri ilə təmizləyir, sonra övladlarını yuxudan oyadaraq təzə bişirdiyi balıqdan yemələrini istəyir. Bu kövrək anlarda hər ikisi də gözlərinin qeyri-ixtiyari yaşardığını hiss edir və yanaqlarından süzülən göz yaşlarına təəccüblənirlər. Duyğusal hisslərlə bir-birinə sarılıb, xatirələrini təzələyirlər.

Fazilə xanım yenidən xatirələrə daldı. Atasının düzəltdiyi naxışlı pəncərələrin önündəki dibçəklərdə əkilən güllər içində ən ətirlisi olan ətirşah gülünün qoxusu sanki bir anlıq yenə burnuna gəldi. Anasının təndir çörəyinin ətri, atasının isə müharibə zamanı 14-15 yaşlarında Göyçə gölündən gecələr balıq ovundan qayıdarkən siqa balığının iyinə gələn canavarların əlindən qorunmaq üçün soyuqda dəfələrlə kəndin ətəyindəki nəhəng alma ağacının başında keçirdiyi gecələr bir-bir yaddaşında canlandı.

Onlar bu xatirələri vərəqlədikcə hər ikisinin ala gözləri dolub boşaldı.

Artıq qaş qaralır, zaman daralır. Maşına yüklənəcək əşyalar azalsa da, evi təhvil vermək üçün atılmalı olan hələ də köhnə əşyalar qalır.

Kifayət xanım əllərini yerə dayayıb yorğun səslə dilləndi:

- Bacı, qalx görək, bir az yığışdıraq.

O qalxan kimi evin bir küncündə dayanan samovarı da Fazilə xanıma göstərib dedi:

- Bacı, gəl kömək elə, bu samovarı da aparıb zir-zibillə birlikdə ataq. Hələ bir dəfə də olsun odluğuna köz atmamışam. Baxdıqca əsəblərim tarıma çəkilir. Sən də bilirsən, həm ən səbirli, həm də ən səbirsiz insan elə mənəm. Bilirəm ki, bunu Bakıya aparsam, orada da illərlə belə bağlı qalacaq. Ona görə də aparmıram, atıram.

Fazilə xanım asta səslə köksünü ötürərək dodağının altında özözünə deyindi:

"Görəsən, axırıncı dəfə hansı tarixdə o gözəl həyatimizdə atamın ya anamın əlləri ilə qaynadılıb bu samovar, ay Allah... Sonuncu dəfə o daş stəkanlarda - içindən qızılı zolağı keçən bənövşəyi, cim-cimələ gülü olan dərin nəlbəkilərdə çay içmək kimə qismət olub?"

O, əyilib samovarın odluğuna baxdı, ümidlə düşündü: bəlkə orada ocaqlarının külündən bir ovuc qalıb…

Yox, gördü ki, samovarın ocağı tər-təmizdir, yenə də deyindi: "Anam elə silkələyib ki, orda bir qaşıq kül qalmayıb."

Evlərinin yanında topladıqları odunluq yadına düşdü. Çörək bişirilən gün anasının təndirdən sönməyə yaxın çıxardığı közü samovarın ocağına dolduraraq dediyi sözləri xatırladı: 'Ay qızlar, az biriniz bunun üstünün odununu əskik etməyin, atanız gələnə kimi sönməsin, bir pürrəngi çay dəmləyin.'"

Fazilə xanım həmin anda anasına dedi: "Ana, sözünü ortalığa atma, adımızdan tapşır ki, sən bu işi gör."

Anası da həmin anda cavabında: "Elə sənə deyirəm, tez dur, samovara köz at."

Fazilə xanım təzəcə Cildəki doğma evlərinə xəyalən səfər etmişdi ki, Kifayət xanımın səsi onu geriyə qaytardı.

"Nə deyirsən dodağının altında? Gəl bunun bir tərəfindən tut görüm, - deyib, samavarın sağ qulpundan yapışdı ki, "mənim sol tərəfdən səmitim gəlmir.

Beləcə, samovar, onun tutkeşi və maşası da əllərində yol alıb zibilliyə doğru getdilər. Zibiliklə evin arasındakı məsafə elə də yaxın deyildi.

O yolu qət edənə kimi Kifayət xanımın danışdıqlarını Fazilə xanım gah eşidir, gah da eşitmirdi. Bir sözlə, onun fikri öz aləmində olduğundan deyilənlər ona maraqlı gəlmirdi. Amma hərdən dodaqaltı "hə" deyirdi.

Arada, yox deyiləsi yerdə də "hə" deyirdi. Çünki samovarı necə xilas etməklə bağlı planlar qururdu. O düşünürdü ki, samovarı xilas etməklə ata ocağını və onun yadigarını qorumuş olur.

Bəli, beləcə gəlib çatdılar sırayla düzülmüş, zibillə dolub-daşan qutuların yanına. Samovarı zibil qutularından bir az aralıya qoydular.

Kifayət xanım: "Qoy samovar görünən yerdə qalsın. Bəlkə kiməsə lazım olar, götürüb aparar. Halal xoşları olsun, istifadə edərlər. Mənə qismət deyilmiş bunun çayını içmək. Hər görəndə əsəbiləşirdim."

*(Ardı gələn sayımızda)*

# Evə aparan yol:

## Humanitar və mənəvi yanaşma

**XXI əsrdə beynəlxalq münasibətlər sistemində insan hüquqları, humanitar dəyərlər və tarixi ədalətin bərpası məsələləri dövlətlərin və beynəlxalq təşkilatların diqqət mərkəzində olan əsas mövzulardandır. Münaqişələrin həlli və davamlı sülhün qurulması yalnız siyasi razılaşmalarla deyil, həm də insan talelərinə həssas yanaşma, tarixi ədalətsizliklərin aradan qaldırılması və məcburi köçkünlərin hüquqlarının təmin olunması ilə mümkündür.**



*Gülgün Mübariz Quliyeva, siyasi elmlər üzrə fəlsəfə doktoru. BDU*

Bu baxımdan Qərbi Azərbaycan məsələsi təkcə siyasi və hüquqi müstəvidə deyil, həm də dərin humanitar və mənəvi məzmun daşıyan bir məsələ kimi qiymətləndirilməlidir. Qərbi Azərbaycan mövzusu yüz minlərlə insanın doğma yurdlarından məhrum edilməsinin, onların tarixi yaddaşının, mədəni irsinin və mənəvi bağlarının qorunması uğrunda aparılan mübarizənin ifadəsidir. Bu məsələ yalnız keçmişlə bağlı xatirələrdən ibarət deyil. O, eyni zamanda insan ləyaqətinin, tarixi həqiqətlərin və fundamental hüquqların tanınması məsələsidir.

**Tarixi yaddaşdan doğan qayıdış arzusu.** Tarix boyu azərbaycan türkləri indiki Ermənistan ərazisində yerləşən çoxsaylı şəhər və kəndlərdə yaşamış, həmin torpaqların sosial, iqtisadi və mədəni inkişafında mühüm rol oynamışlar. İrəvan, Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar, Ağbaba, Şörəyel və digər bölgələr əsrlər boyu Azərbaycan xalqının tarixi-mədəni məkanının ayrılmaz tərkib hissəsi olmuşdur. Lakin XIX əsrdən etibarən bölgədə baş verən geosiyasi dəyişikliklər, etnik zəmində həyata keçirilən siyasətlər və müxtəlif siyasi proseslər nəticəsində azərbaycan türkləri öz doğma torpaqlarından mərhələli şəkildə uzaqlaşdırılmışdır. XX əsrin müxtəlif dövrlərində həyata keçirilən deportasiyalar, zorakı köçürmələr və etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə azərbaycan türkü ata-baba yurdlarını tərk etməyə məcbur olmuşdur.1948-1953-cü illərdə on minlərlə azərbaycan türkünün Ermənistan SSR-dən deportasiya olunması, daha sonra 1987-1991-ci illərdə onların tamamilə qovulması regionun demoqrafik mənzərəsini köklü şəkildə dəyişdirmişdir. Bununla da Ermənistan faktiki olaraq monoetnik dövlətə çevrilmiş, əsrlər boyu formalaşmış multikultural mühit aradan qaldırılmışdır. Bu hadisələr nəticəsində insanlar yalnız evlərini deyil, həm də öz xatirələrini, uşaqlıq illərinin keçdiyi küçələri, ailə ocaqlarını, müqəddəs ziyarətgahlarını və əzizlərinin məzarlarını itirmişlər. Məhz buna görə Qərbi Azərbaycan məsələsi torpaq məsələsindən daha çox insan taleyi və tarixi yaddaş məsələsidir.

**İnsan hüquqları və humanitar ədalət məsələsi.** Müasir dünyada insan hüquqları dövlət sərhədlərindən daha geniş məna daşıyır. Hər bir insanın öz doğma yurduna qayıtmaq, mədəni irsini qorumaq və tarixi kimliyini yaşatmaq hüququ beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsində qeyd olunur ki, hər bir insanın öz ölkəsinə qayıtmaq hüququ vardır. Bu hüquq etnik mənsubiyyətindən, dini baxışlarından və siyasi mövqeyindən asılı olmayaraq bütün insanlar üçün keçərlidir. Qərbi Azərbaycandan deportasiya olunmuş insanların qayıdış hüququ da məhz bu prinsiplərə əsaslanır. Burada söhbət hansısa ərazi iddiasından deyil, insanların fundamental hüquqlarının tanınmasından gedir. Dünyanın müxtəlif regionlarında qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyi kimi, Qərbi Azərbaycan icmasının hüquqları da universal hüquq normaları çərçivəsində qiymətləndirilməlidir. Humanitar yanaşmanın mahiyyəti məhz bundan ibarətdir. İnsan taleləri siyasi mübahisələrin kölgəsində qalmamalıdır. Doğulduğu kəndə qayıtmaq arzusu ilə yaşayan yaşlı bir insanın hissləri, valideynlərinin doğma yurdlarını yalnız fotoşəkillərdən tanıyan gənc nəslin marağı və ailə yaddaşını qorumaq istəyi beynəlxalq hüquq və humanitar prinsiplər baxımından diqqətə layiqdir.

**Mənəvi bağlılıq və milli yaddaş.** Vətən anlayışı yalnız coğrafi məkan deyil. Vətən insanın yaddaşı, ailə tarixi, mənəvi kökləri və kimliyidir. İnsan doğulduğu yerdən uzaq düşə bilər, lakin onun mənəvi bağlılığını və xatirələrini heç bir qüvvə silə bilməz. Qərbi Azərbaycandan olan ailələrin böyük əksəriyyəti bu gün də öz kəndlərinin, bulaqlarının, dağlarının və tarixi məkanlarının adlarını yaşadır. Nənə və babaların danışdığı xatirələr ailə yaddaşının bir hissəsinə çevrilərək yeni nəsillərə ötürülür. Bu baxımdan Qərbi Azərbaycan təkcə keçmişin xatirəsi deyil, həm də milli yaddaşın mühüm elementidir. Tarixi yaddaşın qorunması xalqın öz kimliyini qorumasının əsas şərtlərindən biridir. Məhz buna görə son illərdə Qərbi Azərbaycan irsinin araşdırılması, qədim toponimlərin öyrənilməsi, tarixi sənədlərin toplanması və mədəni irsin tədqiqi istiqamətində həyata keçirilən fəaliyyətlər xüsusi əhəmiyyət kəsb edir.Qərbi Azərbaycanda mövcud olmuş məscidlər, qəbiristanlıqlar, karvansaralar, yaşayış məntəqələri və digər tarixi abidələr yalnız Azərbaycan xalqının deyil, ümumbəşəri mədəni irsin bir hissəsidir. Bu irsin qorunması gələcək nəsillər qarşısında mənəvi məsuliyyətdir.

**Sülhə aparan yol humanizmdən keçir.** Qərbi Azərbaycan məsələsinin ən vacib tərəflərindən biri onun sülh və dialoq müstəvisində təqdim edilməsidir. Azərbaycanın yanaşması beynəlxalq hüquqa, insan hüquqlarına və dinc birgəyaşayış prinsiplərinə əsaslanır. Məqsəd yeni qarşıdurmalar yaratmaq deyil, tarixi ədalətin təmin olunmasına və bölgədə davamlı sülhün formalaşmasına töhfə verməkdir. Müasir dünyada münaqişələrin həlli üçün ən təsirli vasitələrdən biri humanitar diplomatiyadır. Humanitar diplomatiya insanların hüquqlarını ön plana çıxarır, etimad quruculuğunu təşviq edir və qarşılıqlı anlaşmanın formalaşmasına xidmət edir. Qərbi Azərbaycana qayıdış məsələsinə də məhz bu prizmadan yanaşmaq vacibdir. Əgər Cənubi Qafqazda həqiqi və uzunmüddətli sülh qurulacaqsa, region xalqlarının ağrılı tarixi təcrübələri nəzərə alınmalı, bütün məcburi köçkünlərin və deportasiya qurbanlarının hüquqları tanınmalıdır. Ədalət və humanizm olmadan dayanıqlı sülh mümkün deyil.

**Evə aparan yol.** Qərbi Azərbaycana qayıdış ideyası əslində evə qayıdış ideyasıdır. Bu yol yalnız fiziki olaraq müəyyən bir məkana qayıtmaq deyil. Bu, həm də tarixi yaddaşa, mənəvi köklərə, ailə xatirələrinə və insan ləyaqətinə qayıdışdır. Evə aparan yol bəzən uzun olur. Lakin tarix göstərir ki, insanın öz doğma torpağı ilə mənəvi bağını qoparmaq mümkün deyil. Bu bağ nəsillər dəyişsə də yaşayır, xatirələrdə, ailə hekayələrində və milli yaddaşda öz yerini qoruyur.Bu gün Qərbi Azərbaycan məsələsinə humanitar və mənəvi prizmadan yanaşmaq həm tarixi həqiqətlərin düzgün qiymətləndirilməsi, həm də regionda sülhün möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Çünki evə aparan yol yalnız keçmişə deyil, eyni zamanda daha ədalətli, daha humanist və daha təhlükəsiz gələcəyə aparan yoldur. Qərbi Azərbaycan uğrunda mübarizənin əsas mahiyyəti də məhz budur: insan hüquqlarının müdafiəsi, tarixi yaddaşın yaşadılması, mənəvi dəyərlərin qorunması və doğma yurda bağlılığın gələcək nəsillərə ötürülməsi. Bu, yalnız bir xalqın deyil, bütövlükdə bəşəriyyətin paylaşdığı humanitar idealların təcəssümüdür. Evə aparan yol da məhz həmin ideallardan başlayır.

---

Əziz Şuşa, sən azadsan!

Siz heç xəyallarınızın gerçəyini yaşadınızmı?!

Siz heç arzularınızın çiçəyini qoxuladınızmı?!

Ah! Bilsəniz necə gözəl duyğular içərisindəyəm! Şuşanın azadlığı ilə bağlı inşa yazıram. Təsəvvür edirsiniz?!

28 illik həsrətdən sonra azadlıq! Və mən, bu azadlıqdan yazacağam.

Çox xoşbəxtəm! Sevincdən ürəyim köksümə sığmır. Qələmimin mürəkkəbi ürəyimin qanı olsun istəyirəm, "Şuşa, sən azadsan!" cümləsini yazanda!

## Şuşanın qapılarının açılması; Göyçəyə, Zəngəzura, Dərələyəzə, İrəvana gedən yolların ilk müjdəsidir!



*Fəridə Səmədova, BDU-nun mexanika-riyaziyyat fakültəsinin II kurs tələbəsi*

Əllərim də qızıl olsun istəyirəm, sevincimi, fərəhimi sətirlərə düzəndə…

Sol ovcumda torpaq var. Şuşadan gətiriblər – Şuşa torpağı. Şuşanın yağışı, qarı, şəhidimin qızıl qanı hopmuş Vətən torpağı!

Bir ovcumda 28 illik həsrət var. Dünyadan nisgilli köçən, son nəfəsində xəyalı Şuşadan keçən şuşalıların son xəyalı var!

Bir ovcumda torpaq var… Qoxulayıram o torpağı, öpürəm, bağrıma basıram, ruhuma səpirəm o torpağı… İlahi! Yerə-göyə sığmayan dünyam, sözlərə sığmayan xoşbəxtliyimdir bu torpaq!

Xəyalımın gerçəyi Şuşam, arzularımın çiçəyi Şuşam! Bu gün sən azadsan!

Sən mənim ziyalara qərq olan əbədiyyət üfüqümsən, Şuşam! Sən mənim laciverd göy üzümsən, Şuşam! Bu gün sən azadsan!

Bu gün mən, sənin azadlığından yazıram, Şuşam!

Nə xoşbəxtsən, mənim yazan əllərim…

Nə xoşbəxtsən, mənim fərəhlə döyünən ürəyim…

Bu günə qədər həsrətimizi və kövrək ümidimizi ifadə etmişik misralarımızda. Bu gün isə bambaşqadır! Bu gün yollar bizi Şuşaya aparır! Daha xəyalən getmirik doğma yurda.

Mən Qarabağın, Şuşanın azadlığı uğrunda canından keçən bütün şəhidlərimizin pak və mübarək ruhları qarşısında ehtiramla baş əyirəm.

Bu parlaq qələbəmizin əsas memarı olan Ali Baş Komandanımız Cənab İlham Əliyevə yazım vasitəsilə sonsuz minnətdarlığımı bildirirəm. Bir gün Şuşaya gedəcəyimi düşünədüşünə və bu düşüncəmin verdiyi xoşbəxt duyğularla yazımı yekunlaşdırıram.

Mənə Şuşanın azadlığından yazmaq qismət olduğu üçün özünü xoşbəxt insan sayıram.

Ovcumdakı torpağı köksümə sıxıram. Vətən torpağını… Şuşa işğal altında qalıb incidiləcək inci deyildi. Şuşa tariximiz, Şuşa musiqi beşiyimiz, mədəniyyət ocağımızdır. Biz incimizi, Yurdumuzu azad etdik.

28 ildir yazılarımızda hüznlə yazdığımız, həsrətimizi, nisgilimizi ifadə edən

"Vətən bağı al-əlvandır,
Yox içində Xarıbülbül."

misralarını indi mən öz sevincimə bürüyüb bütün ruhumla, bütün qəlbimlə dünyaya bəyan edirəm:

"Vətən bağı al-əlvandır,
Var içində Xarıbülbül!"

Şuşanın azadlığı təkcə Qarabağın dirçəlişi deyil, həm də hər bir Qərbi azərbaycanlının qəlbində illərdir sönməyən o böyük ümid ocağının yenidən gurlamasıdır. Şuşanın qapılarının açılması; Göyçəyə, Zəngəzura, Dərələyəzə, İrəvana gedən yolların ilk müjdəsidir!

Bu gün Şuşa torpağını ovcumda sıxarkən, ruhum doğma Qərbi Azərbaycanın nisgilli dağlarına boylanır. Şuşanın azadlığı pıçıldayır ki, heç bir həsrət əbədi deyil. Bu zəfər sübut etdi ki, haqq gec-tez yerini tapır. İndi gözlərimdə Şuşanın fərəhi, qəlbimdə isə doğma yurdumuza — Qərbi Azərbaycana qayıdacağımız o müqəddəs günün inamı var.

Şuşa azaddırsa, deməli, bir gün mütləq o yollar bizi Göyçə gölünün sahilinə, coşqun Zəngəzur və Dərələyəz dağlarına da aparacaq. Bu gün Şuşada açan Xarıbülbül, sabah Qərbi Azərbaycandakı doğma çəmənlərimizdə boy verəcək! Yolumuz bütöv Vətənədir!

## Tanıyaq, tanıdaq!

# Sofulunun fədakar həkimi - Sirac Əhmədov



**Bəzən bir kənd təkcə xəritədə göstərilən coğrafi məkan olmur. O, nəsillərin yaddaşı, ata-baba ocağının istisi, bulaqların zümzüməsi, dağların vüqarı və elobanın ruhu kimi yaşayır. Qərbi Azərbaycanın yurd yerlərindən olan Sofulu da belə kəndlərdəndir. Zəngəzurun uca dağları qoynunda əsrlərlə Azərbaycan türklərinin yurd saldığı bu kənd təkcə evlərdən və küçələrdən ibarət olmayıb, zəngin tarixi, milli-mənəvi dəyərləri, əməksevər insanları və qədim el adətləri ilə bütöv bir həyat salnaməsi yaradıb.**

Tarixin keşməkeşli yolları Sofulunun taleyinə ayrılıq və nisgil yazsa da, bu yurdun adı yaddaşlardan silinmədi. Çünki yurd sevgisi sərhəd tanımır; o, insanların qəlbində yaşayır, xatirələrdə nəfəs alır və gələcək nəsillərə ötürülən müqəddəs əmanətə çevrilir. Bu gün Sofulu haqqında danışmaq təkcə bir kəndin tarixini vərəqləmək deyil, həm də Qərbi Azərbaycanın zəngin irsini, milli yaddaşını və doğma torpaqlara bağlılığı yaşatmaq deməkdir.

Kəndin adı "Sofulu" türk tayfası ilə əlaqələndirilir.

Sofulular Kəngərli tayfasının tərkibində həm Naxçıvan bölgəsində, həm də Qafqaz Albaniyasının qərb ərazilərində məskunlaşmışdılar. Mənbələrdə Kəngərlilərin adına V əsrdən etibarən rast gəlinir. Səfəvilər dövründə isə onlar Ustaclı tayfa birliyinin tərkibində ölkənin ictimai-siyasi həyatında mühüm rol oynamışlar.

Türklərin etnogenezində iştirak etmiş Kəngərlilərin bir qolu olan Sofulularla bağlı toponimlərə Cənubi Qafqazda, Anadoluda və Trakyada rast gəlinir. Qafanda Sofulu-Ğığı, Ağdamda, Cəbrayılda, Tovuzda, Gürcüstanın Qaraçöp bölgəsində, Çuxursəddə, Adanada və Yunanıstanda Sofulu adlı yaşayış məntəqələri mövcuddur. Şabran rayonunda isə sofulular yaşayırlar.

Kəndin şimal-qərbində yerləşən qədim qəbiristanlıqda üst-üstə üç qat məzarlar, qoç heykəlli qəbir daşları aşkar edilmişdir. Təəssüf ki, 1950-1960-cı illərdə həmin tarixi abidələr Ermənistan hakimiyyət orqanları tərəfindən yük avtomobilləri ilə aparılaraq məhv edilmiş, izləri itirilmişdir.

Sofulu kəndi Qarakilsə (Sisyan) şəhərindən 20 kilometr cənub-qərbdə, Dəstəyurd və Murxuz kəndləri arasında, Əyriçayın sol sahilində, Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ilə sərhəddə yerləşirdi.

Əziz oxucu, bu yazıda səfalı Sofulu yurdunun yetişdirdiyi ziyalılardan biri - Sirac Əhmədov haqqında bəhs edəcəyik.

1922-ci il martın 18-də Qərbi Azərbaycanın Qarakilsə (Sisian) rayonunun Sofulu kəndində anadan olan Sirac Ağamalı oğlu Əhmədov uşaqlıq illərindən elmə və təhsilə böyük maraq göstərirdi. İnsanlara faydalı olmaq arzusu onu tibb sahəsinə yönəltdi və 1940-cı ildə Naxçıvan Tibb Texnikumuna qəbul olunması gələcək həyat yolunu müəyyənləşdirdi. Lakin İkinci Dünya müharibəsinin başlanması onun gənclik arzularını yarımçıq qoydu.

1942-ci ilin fevralında hərbi xidmətə çağırılan Sirac Əhmədov 138-ci Atıcı Diviziyasının 768-ci Atıcı Alayında tibb xidməti leytenantı kimi xidmət etdi. O, Stalinqrad döyüşlərinin iştirakçısı oldu. Xüsusilə "Barrikada" zavodu uğrunda gedən ağır döyüşlər zamanı yaralı əsgərlərin həyatını xilas etmək üçün gecə-gündüz fədakarlıq göstərdi. Döyüşlərdə göstərdiyi şücaətə görə "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində Qələbəyə görə" medalı və II dərəcəli Vətən Müharibəsi ordeni ilə təltif olundu.

Müharibədən sonra yarımçıq qalmış təhsilini davam etdirərək həkim peşəsinə yiyələndi. Tələbəlik illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrında rəssam kimi fəaliyyət göstərməsi onun yalnız tibbə deyil, incəsənətə də maraq göstərdiyini nümayiş etdirirdi.

Ali təhsilini başa vurduqdan sonra doğma Sofulu kəndinə qayıdan Sirac Əhmədov ömrünün uzun illərini kənd həkimi kimi insanlara xidmətə həsr etdi. O, yalnız xəstəlikləri müalicə edən həkim deyildi; kənd sakinlərinin sevincinə də, kədərinə də şərik olan, hər kəsin etibar etdiyi xeyirxah insan idi.

1944-cü ildə Sofuluda ilk tibb məntəqəsi fəaliyyətə başladı. Məntəqənin ilk müdiri Ərəfsə kəndindən olan Əlif həkim idi. 1960-cı ildən etibarən, 1988-ci ilin dekabrınadək Sirac Əhmədov həmin tibb məntəqəsinə rəhbərlik etdi.

O illərdə kənd yerlərində tibbi xidmət məhdud idi. Sirac Əhmədov gecənin hansı saatı olmasından asılı olmayaraq xəstəxəbəri alan kimi yola çıxar, qarlı qış gecələrində, palçıqlı payız yollarında, yayın qızmar istisində kilometrlərlə yol qət edərək xəstələrinin yanına gedərdi. Kənd camaatı yaxşı bilirdi ki, Sirac doktorun qapısı heç vaxt bağlı olmaz, o, heç kəsi ümidsiz geri qaytarmazdı.

Səkkiz övlad atası olan Sirac Əhmədov ailəsində də elmə və təhsilə xüsusi önəm verirdi. O hesab edirdi ki, insanın ən böyük sərvəti var-dövlət deyil, bilik və savaddır. Buna görə də övladlarını zəhmətsevər, vicdanlı və Vətəninə bağlı insanlar kimi böyütməyə çalışırdı.



Ailənin yaddaşında 1918-ci ilin faciələri də dərin iz buraxmışdı. Həmin il erməni silahlı dəstələrinin törətdiyi qırğınlar zamanı Ərəfsə kəndi yaxınlığındakı Hörtuyuz dərəsində ailənin azyaşlı üzvlərindən biri itkin düşmüş və bir daha ondan xəbər alınmamışdı.

1918-ci il martın 15-də Zəngəzur mahalının kəndləri də erməni silahlı dəstələrinin hücumuna məruz qalmışdı. Sakinlər Naxçıvana qaçmağa məcbur olmuş, Dəmirli dağını aşarkən sərt qış şəraitində çoxlu qoca, qadın və uşaq şaxtadan və qar uçqunundan həlak olmuşdu. Ermənilər kəndləri dağıdıb yandırmışdılar. Sovet hakimiyyəti qurulduqdan sonra yalnız az sayda ailə doğma yurduna qayıda bilmişdi.

1931-ci ildə baş vermiş güclü zəlzələ nəticəsində Pisak, Alışar və Qıvraq kəndlərində çoxlu ev dağıldı, ölən və yaralananlar oldu. Sonralar Alışar və Qıvraq kəndlərinin əhalisi Pisak kəndinin yaxınlığına köçürüldü və yeni yaşayış məntəqəsi Sofulu adlandırıldı.

1905-ci ildə Sofuluda 970 nəfər Azərbaycan türkü yaşayırdı. 1959-cu il siyahıyaalınmasına görə kəndin əhalisi 1816 nəfər idi. İkinci Dünya müharibəsi illərində kənddən 92 nəfər cəbhəyə yollanmış, onlardan yalnız 45 nəfəri sağ və ya əlil vəziyyətdə geri dönmüşdü.

1987-ci ildən başlayaraq rayonda azərbaycanlılara qarşı təzyiqlər daha da gücləndi. İnsanlar rayon mərkəzinə gedərkən təhqir və zorakılığa məruz qalırdılar. 1988-ci ildə baş verən hadisələrdən sonra vəziyyət daha da ağırlaşdı. Əvvəlcə qadınlar, uşaqlar və qocalar, daha sonra isə bütün kənd əhalisi doğma yurdunu tərk etməyə məcbur oldu. Əhali əsasən Naxçıvana, Bakıya, Sumqayıta, Mingəçevirə, Saray, Hövsan və Masazır qəsəbələrinə köçdü.

1988-ci ilin noyabrında Sofulu kəndinin azərbaycanlı əhalisi tamamilə deportasiya edildi. Noyabrın 26-da silahlı erməni dəstələri kəndə daxil olaraq evləri qarət etmiş, sahibsiz heyvanları məhv etmişdilər.

Həmin hadisələr zamanı Sirac Əhmədov da etnik zorakılığın qurbanlarından biri oldu. Ailə üzvlərinin xatirələrinə görə, rayon mərkəzinə gedərkən onun azərbaycanlı olduğunu öyrənən şəxslər onu ağır şəkildə döyərək dərəyə atmışdılar. Onun öldüyünü zənn etsələr də, Sirac Əhmədov ağır yaralarla sağ qalmağa nail olmuşdu. Bu hadisə onun sağlamlığında silinməz iz buraxdı.

Kənd sakinləri Sirac doktoru yalnız bacarıqlı həkim kimi deyil, həm də el ağsaqqalı kimi tanıyırdılar. O, insanlar arasında yaranan mübahisələrin həllində söz sahibi idi, gənclərə doğru yol göstərir, ehtiyac içində olan ailələrə təmənnasız kömək edirdi. Yazdığı reseptlərlə yanaşı, xoş sözü və qayğıkeş münasibəti ilə də insanlara ümid verirdi.

1988-ci ildə doğma Sofuludan ayrılmaq Sirac Əhmədov üçün yalnız yaşayış yerini dəyişmək deyildi. Bu, uşaqlıq xatirələrindən, ata-baba ocağından və ömrünü həsr etdiyi insanlardan ayrılmaq demək idi. O, ömrünün sonuna qədər Sofulu həsrətini qəlbində yaşatdı.

Sirac Əhmədov 23 aprel 2002-ci ildə Bakıda vəfat etdi.

Onun ömür yolu Vətən qarşısında şərəflə yerinə yetirilmiş hərbi xidmətin, insanlara fədakar həkimlik xidmətinin və yüksək mənəvi dəyərlərə sədaqətin parlaq nümunəsidir. O, müharibə meydanında yaralı əsgərlərin həyatını xilas edən hərbi həkim, sülh illərində minlərlə insana şəfa verən fədakar təbib, el ağsaqqalı, ziyalı və xeyirxah insan kimi xalqın yaddaşında yaşayır.

Sirac Əhmədovun həyat salnaməsi təkcə bir insanın bioqrafiyası deyil. Bu salnamə Qərbi Azərbaycandan olan bir nəslin keşməkeşli taleyinin, Vətən sevgisinin, insanpərvərliyin və mənəvi ucalığın canlı təcəssümüdür.

## Tanıyaq, tanıdaq!

# Həsənalı Sultan bəy Vəkilov



**Əslən Dərələyəzin Çivə kəndindən olan Azərbaycanın ilk hüquqşunaslarından Həsənalı Sultan bəy Vəkilov.**
**Atası: Məhəmməd bəy Vəkilov Həsənalı Sultan oğlu**
**Anası: Şirinxanım Səfiyeva (rəssam İbrahim Səfi və Əbdürrəhman bəy Düdənginiskinin yaxın qohumudur)**

Xarkov imperator Universiteti tələbələrinin 1912-1913-cü tədris ilinə aid siyahısının 35-ci səhifəsində 474-cü yerdə "Vəkilov Həsən-Əli Sultan-bəy" adını oxuyuruq. Orada haqqında bu bilgilər var: hüquq fakültəsinin 7-ci semestrinin (4- cü kurs) tələbəsidir; müsəlmandır; bəydir; 1887-ci il doğumludur; İrəvan gimnaziyasını bitirib; Universitetə 1909-cu ildə daxil olub. Sonrakı hüquqşünas fəaliyyəti onun Universiteti bitirdiyinə şübhə yeri qoymur.

Həsənalısultan bəy əsasən Tiflisdə yaşayıb. 1920-ci ildə aldığı pasportunda onun Gürcüstan vətəndaşı olduğu qeyd edilib. Tiflisdə Mariya adlı gürcü qızı ilə ailə qurub.

1920-ci ilin aprelində Rusiya Azərbaycan Cümhuriyyətini devirsə də Gürcüstanda hələ milli hakimiyyət davam edirdi, ancaq Vəkilov tezliklə bu ölkənin də əsarət altına düşəcəyini güman etdiyinə görə Türkiyəyə mühacirət etməyi qərarlaşdırıb. Bu məqsədlə 30 sentyabr 1920-ci ildə Vladiqafqaz şəhərindəki Gürcüstanın Tersk-Dağıstan vilayəti konsulluğundan 4548/2841 saylı pasport alıb.Sənəd 1921-ci ilin 30 martınadək qüvvədə olub. Doğrudur, pasportda ailəli olduğu və 23 yaşlı arvadı Mariyanın da onunla birgə olduğu qeyd edilib, ancaq qohumların bildirdiyinə görə, Mariya xanım onunla Türkiyəyə getməkdən imtina edib.

Vəkilov Türkiyədə yenidən evlənib. Bu dəfə Krım türklərindən olan Safiyə xanım'la dünya evinə girib.

Onun Türkiyədəki həyatı haqqında bilgilər çox azdır. Yalnız Ramiz Abutalıbovvə Giorgi Mamulianın araşdırmalarında bəlli olur ki, Həsənalısultan (Sultan) bəy qardaş ölkədə siyasi mühacir kimi fəaliyyət göstərib. Özü də, o, Məhəmmədəmin Rəsulzadə cinahına qarşı mövqedə dayanıb və Parisdəki Azərbaycan Heyəti- Mürəxxəsəsinin (tam səlahiyyətli Nümayəndə Heyətinin) sədri Əlimərdan bəy Topçubaşı ilə eyni mövqedən çıxış edib. Məsələn, Azərbaycanlıların Partiyasızlar Qrupu nümayəndələrinin 28 sentyabr 1927-ci ildə İstanbuldan Əlimərdan bəyə göndərdiyi məktubu Qrupun qurucularından Hüseynqulu xan Xoyski (polkovnik), şahzadə Xosrov Mirzə Qacar (polkovnik), Lütfəli bəy Əmircanov, Zilli bəy Şamxorlu, Mahmud bəy Zeynalov (polkovnik), Məhəmməd bəy Məhəmmədov (aqronom), Heydər Əliyev, Əliəkbər bəy Şamxorlu (hüquqçu) ilə yanaşı, "hüquqçu, prokuror yoldaşı" Həsənəlisultan bəy Vəkilov da imzalayıb. Məktuba qol çəkən bu şəxslər Heyəti-Mürəxxəsəyə bildiriblər ki, İstanbulda yaranmış Azərbaycan Partiyasızlar Qrupu Əlimərdan bəyin başçılıq etdiyi Azərbaycan Nümayəndə Heyətini xaricdə Azərbaycan Cümhuriyyəti adından danışmaq səlahiyyətli yeganə qurum kimi tanıyır və "məsuliyyətsiz şəxslərin, yaxud qrupların" başqa cür çıxışlarını saymır. Onlar "məsuliyyətsiz şəxslər, yaxud qruplar" dedikdə ilk növbədə Məhəmmədəmin Rəsulzadəni və Müsavat Partiyasını nəzərdə tuturdular.

Məktubun sonunda Qrupun qurucuları Heyəti-Mürəxxəsə sədrinin keçmişdə və indiki fəaliyyətini yüksək dəyərləndirib.

Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Birləşmiş Dövlət Siyasi İdarəsinin Xüsusi Şöbəsi 21 dekabr 1927-ci ildə hazırladığı "tamamilə məxfi" qrifli məlumatında Müsavat Partiyası Xarici Bürosu ilə Parisdəki Azərbaycan Nümayəndə Heyəti arasında 1 dekabr 1927-ci ildəki münaqişəyə və İstanbuldakı Azərbaycanlıların Partiyasızlar Qrupunun bu zaman tutduğu mövqeyi açıqlayarkən bildirib ki, Partiyasızlar Qrupu üçün Əlimərdan bəydən Həsənalı Sultan Vəkilovun və Əliəkbər bəy Şamxorlu'nun adına 19 noyabrda məktublar gəlib. Bu məktublarda o, xəbər verib ki, satılmış neftli sahələr üçün düşən pul payını Nümayəndə Heyətinin almasına imkan verməməkdən ötrü müsavatçılar Neft Sənayeçiləri Birliyinə məktub yazıblar ki, Heyət səlahiyyətlərindən məhrum edilib və onlara bir daha pul ödənilərsə gələcək "Azərbaycan milli hökuməti" bu satış aktını tanımayacaq. Topçubaşov bunu da yazıb ki, ancaq müsavatçıların gözlədikləri olmayıb – neft şirkəti yalnız Nümayəndə Heyətini tanıyır.

Vəkilov Azərbaycan Milli Mərkəzində də yaranmış Topçubaşı-Rəsulzadə qütbündə Topçubaşının tərəfində dayanıb və burada yenə Partiyasızlar Qrupunu təmsil edib. 14 dekabr 1928-ci ildə onun adı önəmli bir yığıncağın qəbul etdiyi qətnamədə də keçir. Həmin qətnaməni bu nümayəndələr qəbul edib: Müsavat Partiyasının müstəqil təşkilat kimi ayrılmış hissəsindən Xəlil bəy Xasməhəmmədli, Şəfi bəy Rüstəmbəyli, Məhəmmədsadıq Axundzadə (Aran), Həsən Fəttahlı, Musa Rəfizadə, Milli Demokratik Partiyadan Xosrov bəy Sultanzadə, Azərbaycan Partiyasızlar Qrupundan Əbdüləli bəy Əmircanov, Əliəkbər bəy Şamxorlu,Mahmud bəy Zeynalov, Xosrov Mirzə Qacar və Həsənalısultan bəy Vəkilov.

Bütün bunlar Vəkilovun 1920-ci illər boyunca İstanbulda siyasi mühitdə fəallıq göstərdiyini sübut edir.

Qızı Leyla Vəkillinin bildirdiyinə görə, Həsənalısultan bəyin özəlliklə Şəfi bəy Rüstəmbəyli ilə yaxın münasibətləri olub. Hətta onların şərikli ticarətinin mövcudluğu haqqında da fikirlər var.

1930-cu illərin başlarında Rüstəmbəyli ilə Rəsulzadə arasında kəskin münasibətlər yarandığı, ortaya qarşılıqlı ittihamlarla dolu kitablar qoyulduğu zaman Şəfi bəy aralarındakı mübahisəni həll etmək üçün müstəqil hüquqşünas kimi Həsənalısultan bəyi vicdan məhkəməsinin hakimliyinə namizədlərdən biri kimi təklif edib.

Bizə dəqiq bəlli olmayan bir tarixdə Vəkilov həyat yoldaşı Safiyə xanımla birgə Fransanın paytaxtı Paris şəhərinə köçüb. Burada 1932-ci ildə onların qızı Leyla Vəkilli dünyaya gəlib. Parisdə bir müddət yaşadıqdan sonra yenidən İstanbula dönüblər. Leyla Vəkilli 1952-ci ildə İstanbulda fransız liseyində təhsil alıb. Daha sonra Fransaya gedərək Sorbon Universitetinin sosiologiya fakültəsini bitirib və Fransada jurnalist kimi fəaliyyətə başlayıb. 184 ölkədə bürosu olan məşhur Sipa-Press Agentliyində çalışıb. Jurnalistlik fəaliyyəti ilə bağlı olaraq dünyanın bir çox ölkələrində bulunub. O, savaş müxbiri kimi Afrika, Latın Amerikası, Fələstin, Nikaraqua və Əlcəzairdən reportajlar hazırlayıb. Əlcəzairdə uğradığı avtomobil qəzasında ağır yaralanıb. Həmin ölkədə argentinalı marksist inqilabçı və siyasətçi Ernesto Çe Gevara ilə 3 saatlıq görüşdə iştirak edib. 1962-ci ildə Fransada Nazım Hikmət'lə görüşüb. Fransada Türk Filmləri Festivalının qurucusu olub. Leyla Vəkilli Fransada 20 min tirajla çıxan "DEFİ" ("Çağırış") jurnalının baş redaktoru olub. 1996-cı ilədək Parisdə yaşayan Leyla xanım həmin il Türkiyəyə – Bodrumun Muğla şəhərinin Türkbükü bölgəsinə köçüb. O, 2011-ci ilin iyulunda Bakıya gələrək buradakı qohumları ilə görüşüb. Bu vaxt biz də hörmətli Səməd bəy Vəkilovun vasitəçiliyi ilə onunla görüşərək özü və atası haqqında bilgi və bəlgələr əldə etmişdik. Leyla xanım 26 noyabr 2017-ci ildə Türkiyədə dünyasını dəyişib.

# Xalq qəhrəmanı Balo bəy Vəkilov



*Xalq qəhrəmanı Balo bəy Vəkilovun məzarı ziyarət edilib.*

Bu barədə ADPU-nun Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri tarix üzrə fəlsəfə doktoru Leyla Calalova məlumat verib. O, bildirb ki, Xalq qəhrəmanı Balo bəy Vəkilovun məzarının ziyarət edilməsi artıq ənənə halını alıb. Qərbi Azərbaycan Dərələyəz(Keşkənd) İcmasının rəhbəri, professor Mahirə Nağıqızının təşəbbüsü ilə ilk dəfə geniş ictimaiyyət tərəfindən ziyarət edildikdən sonra Naxçıvanda səfərdə olan ziyalılar bu ənənəni davam etdirirlər.

Tarixçi alim L.Calalovanın sözlərinə görə, 1918-1920-ci illər Azərbaycan tarixinin ən mürəkkəb və çətin dövrlərindən biridir bir tərəfdən Anadoluda erməni dövləti yaratmaq istəyən qüvvələrin xülyaları boşa çıxmışdı. Digər tərəfdən isə Çar Rusiyası süquta uğramışdı. Fürsətdən istifadə edən ermənilər Qafqaz Hərbi dairəsindəki silahları ələ keçirmiş, Osmanlıda qırğınlar törədən Andranik Ozanyana saxta



general rütbəsi verilmişdi. Belə bir şəraitdə Azərbaycan öz müstəqilliyini elan etmişdi. Andranik Ozanyanın hərbi dəstələri Anadoludan Azərbaycan ərazisinə daxil olaraq silahsız mülki əhaliyə qarşı kütləvi qətllər həyata keçirirdi. Belə bir şəraitdə məhz xalq qəhrəmanı Balo bəy Vəkilov Çivə özünümüdafiə taborunu yaradaraq Şərur-Dərələyəz qəzasında Andranikin qoşunlarına qarşı milli mücadiləni təşkil etmişdi. Təsadüfi deyil ki, ermənilər nə qədər mübarizə aparsalar da, Çivə kəndini aylarla mühasirədə saxlasalar da, kəndi təslim edə bilməyiblər. Belə qəhrəmanlar unudulmamalıdır. Balo bəy Vəkilov kimi qəhrəmanlarımızın ehtiramını saxlamaq hər birimizin borcudur.

L.Calalova onu da vurğulayıb ki, Andranik Ozanyanın ordusuna qarşı vuruşan Dərələyəzin qəhrəman övladlarından olan Hüseyqulu və Dini kişilər kimi qəhrəmanlarımız təəssüf ki tədqiqatdan kənarda qalıb. Hesab edirik ki, həmin qəhrəmanların irsidə öyrənilməlidir.

# “Qayıdışa aparan yol: Dərələyəz gənclərinin uğur hekayələri” mövzusunda tədbir keçirilib

**30 iyun 2026-cı il tarixində “Qayıdışa aparan yol: Dərələyəz gənclərinin uğur hekayələri” mövzusunda tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Dərələyəzli gənclərin elm, təhsil, idman və yaradıcılıq sahələrində əldə etdikləri nailiyyətləri, eləcə də müxtəlif müsabiqələrdə qazandıqları uğurları əks etdirən sərgi ilə tanış olublar. Sərgidə gənclərin müəllifi olduqları müxtəlif əl işləri, rəsm əsərləri, elmi və yaradıcılıq nümunələri nümayiş etdirilib.**



Rəsmi hissə Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin, eləcə də Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsiylə başlayıb.

Ardınca tədbiri giriş sözü ilə Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli açaraq Dərələyəz mahalının zəngin tarixi, mədəni irsi və yetişdirdiyi ziyalıların Azərbaycan cəmiyyətindəki rolundan bəhs edib. O, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvləri, professor Mahirə Hüseynova və Faiq Xudayevin Dərələyəz mahalının tarixi-mədəni irsinin yaşadılması, Qərbi Azərbaycana Qayıdış ideyasının təbliği və gənclərlə sistemli işin təşkili istiqamətində həyata keçirdikləri fəaliyyəti yüksək qiymətləndirərək onlara İcmanın təşəkkürünü bildirib.

Ə. Ələkbərli tədbirdən əvvəl təşkil olunan sərgi ilə tanış olduqlarını, Dərələyəzli gənclərin əl işlərini, yaradıcılıq nümunələrini və idman sahəsində qazandıqları uğurları yüksək qiymətləndirdiklərini bildirib. O qeyd edib ki, tarix boyu Dərələyəz mahalı Azərbaycanın görkəmli ziyalılarını, elm və mədəniyyət xadimlərini yetişdirib və bugünkü gənclərin nailiyyətləri həmin ənənənin davam etdiyini bir daha sübut edir.

Çıxışında Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına da toxunan Əziz Ələkbərli bildirib ki, Prezident tərəfindən irəli sürülən bu strateji ideya artıq real mərhələyə qədəm qoyub. Onun sözlərinə görə, həyata keçirilən tədbirlər, xüsusilə son aylarda Naxçıvanda keçirilən festival və konqresin, Şamaxıda və Göygöldə keçirilən festivalların əhəmiyyətini xüsusi vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Dərələyəz İcmasının sədri, professor Mahirə Hüseynova təkcə gənclərin uğurlarının təqdim olunduğu bir görüş olmadığını, həm də milli yaddaşın gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Professor qeyd edib ki, bu gün Qərbi Azərbaycana Qayıdış ideyasının əsas daşıyıcıları məhz gənclərdir. O, Qarabağın işğaldan azad olunmasında gənclərin göstərdikləri qəhrəmanlığı xatırladaraq, Qərbi Azərbaycana qayıdış yolunda da aparıcı qüvvənin yenə gənclər olacağına əminliyini ifadə edib. "Qarabağa Zəfəri gətirən gənclər oldu. Biz yaşlı nəsil onların yolunu gözləyirdik. İnanıram ki, Qərbi Azərbaycana qayıdışın da əsas aparıcı qüvvəsi siz – gənclər olacaqsınız. Biz sizə inanırıq və bu inamın haqqını verəcəyinizə əminik", – deyə Mahirə Hüseynova vurğulayıb. Professor Qərbi Azərbaycan İcmasının həyata keçirdiyi elmi-tədqiqat və nəşr layihələrindən də bəhs edərək bildirib ki, hər bir kəndin tarixi, toponimləri, maddi-mədəni irsi və görkəmli şəxsiyyətləri barədə ayrıca kitabların hazırlanması istiqamətində işlər davam etdirilir. Onun sözlərinə görə, bu prosesdə gənclərin fəal iştirakı xüsusi əhəmiyyət daşıyır.

"Biz istəyirik ki, hər bir kəndimizin tarixi yazılsın. Hər bir bulağın, dağın, yaylağın, yurd yerinin adı gələcək nəsillərə çatdırılsın. Bu işdə gənclərin araşdırmaları və təşəbbüsləri bizim üçün çox dəyərlidir", – deyə Mahirə Hüseynova bildirib. Çıxışının sonunda professor gənclərə müraciət edərək onların bütün təşəbbüslərinə açıq olduqlarını bildirib və vurğulayıb ki, Qərbi Azərbaycan İcmasının qapıları hər bir gəncin üzünə açıqdır. "Sizin hər bir uğurunuz bizim uğurumuzdur. Sizin sevinciniz də, probleminiz də bizim üçün önəmlidir. Qərbi Azərbaycana qayıdış yolunda ən böyük ümidimiz sizsiniz və inanırıq ki, bu müqəddəs amalın həyata keçməsində öz sözünüzü deyəcəksiniz", – deyə Mahirə Hüseynova çıxışını yekunlaşdırıb.

Sonra Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxışında bildirib ki, tədbirin əsas dəyəri yalnız Dərələyəz mənşəli gənclərin qazandıqları fərdi uğurların təqdim olunması deyil, həm də milli yaddaşı, tarixi kimliyi və Qərbi Azərbaycana Qayıdış ideyasını gələcək nəslə ötürən gənclərin bir araya gəlməsidir.

O qeyd edib ki, bu gün burada iştirak edən gənclərin əksəriyyəti Dərələyəzdə doğulmasa da, onların hər biri doğma yurd sevgisini, milli kimliyini və Qərbi Azərbaycana bağlılığını öz fəaliyyətində yaşadır. Deputat vurğulayıb ki, gənclərin elm, təhsil, idman, incəsənət və digər sahələrdə əldə etdikləri uğurlar Azərbaycanın intellektual və mənəvi potensialının göstəricisidir.

Hikmət Babaoğlu bildirib ki, tədbirdə Azərbaycanın müxtəlif bölgələrindən gələn Dərələyəzli gənclərin bir araya toplaşması həm onların bir-birini daha yaxından tanımasına, həm də gələcək əməkdaşlıqların qurulmasına imkan yaradır. Onun sözlərinə görə, bu cür görüşlər Qərbi Azərbaycandan olan gənclər arasında həmrəyliyin möhkəmlənməsinə və ortaq məqsədlər ətrafında birləşməsinə mühüm töhfə verir.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru, Paşalı rayon İcmasının sədri, dosent Faiq Xudayev çıxışında bildirib ki, "Qayıdışa aparan yol: Dərələyəz gənclərinin uğur hekayələri" adlı tədbir təkcə Dərələyəz mahalından olan gənclərin görüşü deyil, eyni zamanda özündə bütöv bir nəslin keçmişini, bu gününü və gələcəyini yaşadan, milli-mənəvi dəyərlərin qorunmasına xidmət edən mühüm bir platformadır. Onun sözlərinə görə, bu gün burada toplaşan gənclər Vətən uğrunda canlarını fəda etmiş qəhrəmanların ideallarını yaşadan, onların əmanətini gələcəyə daşıyan nəslin nümayəndələridir. Natiq vurğulayıb ki, tədbirdən əvvəl nümayiş etdirilən sərgidə gənclərin rəsm əsərləri, əl işləri, idman nailiyyətləri və müxtəlif istiqamətlər üzrə qazandıqları uğurlarla tanış olublar. O bildirib ki, həmin nümunələr Dərələyəz mahalının əsrlər boyu istedadlı insanlar yetişdirdiyini bir daha təsdiqləyir. Tarixən bu torpaqlar Azərbaycanın elm, mədəniyyət və ictimai fikir həyatına böyük töhfələr vermiş ziyalılar yetişdirib və bu günün gəncləri də həmin ənənəni uğurla davam etdirirlər. Faiq Xudayev qeyd edib ki, tədbirdə iştirak edən gənclərin əksəriyyəti Dərələyəzdə doğulmayıb. Bununla belə, onların hər biri öz qəlbində doğma yurd sevgisini, Qərbi Azərbaycana bağlılığı və qayıdış arzusunu yaşadır. O bildirib ki, gənclərin yaratdıqları rəsm əsərlərində, iştirak etdikləri yarışlarda, qazandıqları medallarda və elmi nailiyyətlərində bu bağlılıq açıq şəkildə hiss olunur. Onlar idmanda, musiqidə, elmdə, incəsənətdə və digər sahələrdə əldə etdikləri uğurlarla Azərbaycanı layiqincə təmsil etməklə yanaşı, Dərələyəz mahalının adını da qürurla yaşadırlar. Faiq Xudayev qeyd edib ki, Dərələyəzli gənclərin qazandıqları uğurlar daha geniş ictimaiyyətə çatdırılmalıdır.

Çıxışının sonunda Faiq Xudayev tədbirin təşkilində əməyi olan Qərbi Azərbaycan İcmasının rəhbərliyinə, İcmanın aparatına, Keşkənd rayon İcmasının sədri Mahirə Hüseynovaya və bütün təşkilatçılara təşəkkürünü bildirib. O qeyd edib ki, Qərbi Azərbaycan İcması böyük bir ailədir və bu ailənin hər bir üzvünün uğuru ümumi sevinc kimi qarşılanır. Gənclərə müraciət edən natiq onları İcmanın fəaliyyətində daha fəal iştirak etməyə çağırıb, hər zaman onların yanında olduqlarını bildirərək gələcək fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıb.

Çıxışlardan sonra ali təhsil müəssisələrinə yüksək balla qəbul olmuş bir qrup gəncə, eləcə də onların valideynlərinə Qərbi Azərbaycan İcmasının üzvlük vəsiqələri, döş nişanları və təşəkkürnamələr təqdim olunub. Bildirilib ki, bu cür təşəbbüslər gənclərin elmə və təhsilə marağının daha da artırılmasına, onların yeni uğurlara həvəsləndirilməsinə xidmət edir.

Tədbirdə Akademik Zərifə Əliyeva adına liseyin IX sinif şagirdi Adıgözəlli Ramal çıxış edərək buraxılış imtahanında əldə etdiyi 300 ballıq nəticənin ona daha böyük hədəflər müəyyənləşdirməyə stimul verdiyini bildirib. Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi, ictimai fəal İlahə Xudayeva da çıxış edərək beynəlxalq təhsil təcrübəsi, müxtəlif ölkələrdə iştirak etdiyi olimpiada və müsabiqələr barədə danışıb. Hazırda Honkonq Universitetində təhsil alan gənc bildirib ki, dünyanın müxtəlif ölkələrində əldə etdiyi uğurlar Azərbaycanın və Qərbi Azərbaycandan olan gənclərin potensialını nümayiş etdirmək baxımından böyük əhəmiyyət daşıyır.

Daha sonra istedadlı gənclərə Qərbi Azərbaycan İcmasının üzvlük vəsiqələri və təşəkkürnamələri təqdim olunub.

Rəsmi hissənin ardından gənclərin ifasında rəngarəng bədii proqram təqdim edilib. Tədbir iştirakçıları milli rəqs nümunələrini və musiqi ifalarını maraqla izləyiblər. Bədii hissə gənclərin istedadının nümayişi ilə yanaşı, milli-mədəni irsimizin təbliği baxımından da yüksək qiymətləndirilib.

Sonda tədbirin təşkilatçıları bu cür görüşlərin gənclərin bir araya gəlməsi, onların uğurlarının tanıdılması, Qərbi Azərbaycana Qayıdış ideyasının təbliği və milli həmrəyliyin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildiriblər.

Tədbir xatirə şəkillərinin çəkdirilməsi ilə başa çatıb.


**Təsisçi və Baş redaktor**
**Mahirə Hüseynova**
*Redaktor*
**Leyla Calalova**

*Məsul katib*
**Möhübbət Məmmədov**
*Korrektor*
**Aynurə Babayeva**
*Dizayn*
**Dönməz Abbasov**

Redaksiya heyəti:
**İbrahim Bayramov**
**Könül Həsənova**
**Səməd Vəkilov**
**Fərrux Rüstəmov**
**Cəlal Allahverdiyev**

Azərbaycan Respublikası Medianın İnkişaf Agentliyi Media Reyestri Şəhadətnaməsi
Qeydiyyat:
№: CA61EF8114733BA
**Ünvanımız:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 68

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj: 200 Sifariş: 2274**